Adımız məfkurəmizdir
17 – 23 dekabr 2024-cü il
Türküstan
www.turkustan.az



TALEH CƏFƏROV
ADPU-nun Ümumi Tarix və tarixin tədrisi texnologiyası kafedrasının dosent əvəzi, tarix üzrə fəlsəfə doktoru

# Türklərin ilkin vətəni problemi

**Kurqan mədəniyyəti fikrinin sahibi olan Gimbutas İdil-Ural çevrəsindən gələn atlı döyüşçülərin ilk dəstəsinin e.ə. 3500-cü illərdə və sonuncusu e. ə. 2400-2200-cü illər arasında olmaqla 3 dalğada təxminən bütün Avropanı ələ keçirdiklərini, dolayısı ilə sonrakı Hind-Avropa dilində danışanların atalarının bunlar olduğunu qeyd edir. E. ə. 3700-cü ildən etibarən Altay və ətrafında formalaşan Afanasiyev sakinləri ilə əlaqə saxlamışlar. Asiyadakı Sintaşta ilə Afanasiyev genlərinin fərqli formalaşması, birincilərin Şimali Avropa seramik mədəniyyəti, ikincilərin də Yamnaya ilə daha çox eynilik daşıması, Gimbutun iddia etdiyi bütün kurqan axınlarının eyni nöqtədən gəlmədiyi gerçəyinə işarədir. Qara dənizin şimalı ilə orta və aşağı Dunay boyu ərazilərə yayılmış kurqan mədəniyyəti İrlandiyaya qədər gedən qol kurqanların Qərbi Avropada yayılmasında mühüm rol oynamışdır...**

(əvvəli ötən sayımızda)

***Antoni son tədqiqatlarında Qara dənizin şimal-şərqini, Qafqazın şimalındakı çölləri türklərin təşəkkül tapdığı ilkin ərazilər hesab edir. Əsas səbəb kimi arabanı kəşf edən buradakı topluluğun bununla uzun məsafələrə yayıla bilməsidir. Antoni ilk arabanın e. ə. 3500-cü ildə bu ərazilərdə hazırlandığını qeyd edir. Dünyadakı ən qədim araba rəsmi də Polşada e. ə. 3500-cü illərə aiddir və e. ə. 3100-cü illərdə araba bütün bozqır həyatının bir parçasına çevrilmişdir.***

Antoni türkün ilkin vətəninin Şimali Qafqaz, Gimbutas Cənubi Ural olduğunu güman edir. Onlar həmçinin bölgənin yerli əhalisinin tamamilə türk və fin qrupundan olan xalqlardan ibarət olduğunu qeyd edirlər. Mallori isə türklərin ilkin vətəninin Xəzər dənizinin güneyindəki kurqanlarla zəngin çöllük ərazilərin olduğunu qeyd edir. Onun kimi bir çox tədqiqatçılar da qədim dövr Orta Şərqində peyda olan Hind-Avropalı əksər xalqların (perslər, hetlər, friqlər, ermənilər) kənardan gəldiyini qeyd edir. Görkəmli etnoqraf

*Şərqin böyük alimi Əbu Osman Əmr ibn Bəhr Cahiz (775–868) “Mənaqibi-t Türk”adlı risaləsində türklərin antropoloji görkəminə toxunaraq onların “kürən saçlı, bəyaz dərili” olduğunu yazmışdır. Nizami yaradıcılığında da “Türk” sözü ağlıq, bəyazlıq və gözəllik çalarında işlənməkdə idi. Orta çağın böyük tarixçilərindən Həmdullah Qəzvininin“Nüzhətül-qülub” əsərində bu barədə çox tutarlı yazılar var. Onun bilgisinə görə, Xoy şəhərində “yaşayanların üzlərinin rəngi ağdır, kökcə xətayi və görkəmcə gözəl adamlardır. Xoy türk yurdu kimi bəllidir”. Qəzvin, Marağa və Sərab şəhərlərində yaşayanlar barəsində də “bəyaz üzlü adamlardır”, “buranın xalqı ağ bənizlidir, türkdür” yazmışdır...*



Darden hetlərin Orta Anadoluya sonradan gəldiyini və çox güman ki, Qara dənizin şimalından Balkan yarımadasına ilk gələn toplumun da bu Anadolu dillərində danışanların atalarının olduğunu güman edir. Daha dəqiq məlumatlara görə, Mərkəzi Asiyanın şimalında, İşim çayının şərqindəki Botay hövzəsindəki tapıntılar e. ə. 3700-cü ildən etibarən ata minildiyini göstərir. Drewsə görə, atlı döyüşçülər e. ə. 1000-ci ilə doğru meydana çıxmışdır.

Şərqin böyük alimi Əbu Osman Əmr ibn Bəhr Cahiz (775–868) “Mənaqibi-t Türk”adlı risaləsində türklərin antropoloji görkəminə toxunaraq onların “kürən saçlı, bəyaz dərili” olduğunu yazmışdır. Nizami yaradıcılığında da “Türk” sözü ağlıq, bəyazlıq və gözəllik çalarında işlənməkdə idi. Orta çağın böyük tarixçilərindən Həmdullah Qəzvininin“-Nüzhətül-qülub” əsərində bu barədə çox tutarlı yazılar var. Onun bilgisinə görə, Xoy şəhərində “yaşayanların üzlərinin rəngi ağdır, kökcə xətayi və görkəmcə gözəl adamlardır. Xoy türk yurdu kimi bəllidir”. Qəzvin, Marağa və Sərab şəhərlərində yaşayanlar barəsində də “-bəyaz üzlü adamlardır”, “buranın xalqı ağ bənizlidir, türkdür” yazmışdır.

XIX əsr müəlliflərindən İ.Şopen tarixi qaynaqlara əsaslanaraq Azərbaycanın ən qədim boylarından olan kəngərlilərin də “-göygöz, sarı saç” olduqlarını bildirir.

E. ə. IV minillikdən başlayaraq çöl-düzənlik dəfn qaydasının sabit, ənənəvi etnokültür göstəricisi olan kurqan anlayışı Hind-Avropa, Hind-İran və Qafqaz dillərinin heç birində yoxdur, bu anlayışların kökü yalnız türk dillərindədir, bu qur (tikmək, düzəltmək, torpaq tökməklə yaratmaq) və qan (ata, soy, nəsil) hissələrinin birləşməsindən yaranmışdır. E. ə. VII-III minilliklərdə Ön və Mərkəzi Asiyada onlarca yaşayış yerlərinin adlarında, bir qayda olaraq, təpə sözü var, bu söz isə, bütün dünya dilçilərinin bildiyi kimi, ümumtürk kökündəndir.

***Kurqan mədəniyyəti fikrinin sahibi olan Gimbutas İdil-Ural çevrəsindən gələn atlı döyüşçülərin ilk dəstəsinin e.ə. 3500-cü illərdə və sonuncusu e. ə. 2400-2200-cü illər arasında olmaqla 3 dalğada təxminən bütün Avropanı ələ keçirdiklərini, dolayısı ilə sonrakı Hind-Avropa dilində danışanların atalarının bunlar olduğunu qeyd edir. E. ə. 3700-cü ildən etibarən Altay və ətrafında formalaşan Afanasiyev sakinləri ilə əlaqə saxlamışlar. Asiyadakı Sintaşta ilə Afanasiyev genlərinin fərqli formalaşması, birincilərin Şimali Avropa seramik mədəniyyəti, ikincilərin də Yamnaya ilə daha çox eynilik daşıması, Gimbutun iddia etdiyi bütün kurqan axınlarının eyni nöqtədən gəlmədiyi gerçəyinə işarədir. Qara dənizin şimalı ilə orta və aşağı Dunay boyu ərazilərə yayılmış kurqan mədəniyyəti İrlandiyaya qədər gedən qol kurqanların Qərbi Avropada yayılmasında mühüm rol oynamışdır.***

Oxu, oxut, abunə ol!